# THE FORMULATION OF CREATIVE PERSONALITY IN THE "HEALTHY EDUCATION – HEALTHY NATION" PROJECT

**Aynur Bunyatova**
Lecturer at Azerbaijan University,
Doctor of Philosophy in Psychology
E-mail: aynur.bunyadi@au.edu.az
https://orcid.org/0000-0003-3287-9462

**Abstract.** The main aim of modern psycho-pedagogical theories and their practical directions is to develop every child as a healthy, active, and creative person. The article is dedicated to the formation of a creative personality in the "Healthy Education – Healthy Nation" project in Azerbaijan. The main idea of the program is to assess and improve the medical-hygienic, psychological, and pedagogical level of effectiveness of healthy educational technologies used to form a physically, mentally, and spiritually healthy, creative personality. The main goal of the psychological research in the article was to evaluate the psychological impact of healthy educational technologies applied in the education system on the formation of a creative personality.
**Keywords:** training process, psycho-pedagogical training methods, mental development, healthy education, creative potential, emotional relationships.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.23
**To cite this article:** Bunyatova A. (2022). The formulation of creative personality in the "Healthy Education – Healthy Nation" project. *Journal of Preschool and Primary Education*, Special issue –1 (2022). pp. 34-42.
**Article history:** received – 08.12.2021; accepted – 09.01.2022.

# "SAĞLAM TƏHSİL – SAĞLAM MİLLƏT" LAYİHƏSİNİN YARADICI ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ƏHƏMİYYƏTİ

**Aynur Bünyatova**
Azərbaycan Universitetinin müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru
E-mail: aynur.bunyadi@au.edu.az
https://orcid.org/ 0000-0003-3287-9462

**Annotasiya.** Müasir psixo – pedaqoji nəzəriyyələrin və onların praktik yönümlərinin əsas məqsədi hər bir uşağı sağlam, fəal və yaradıcı şəxsiyyət kimi inkişaf etdirməkdir. Məqalə Azərbaycanda "Sağlam Təhsil – Sağlam Millət" layihəsində yaradıcı şəxsiyyətin formalaşmasına həsr edilmişdir. Layihənin əsas ideyası fiziki-psixi və mənəvi cəhətdən sağlam, yaradıcı şəxsiyyətin formalaşdırılması üçün tətbiq edilən sağlam təhsil texnologiyalarının səmərəlilik səviyyəsinin tibbi-gigiyenik, psixoloji və pedaqoji baxımdan dəyərləndirilməsi və təkmilləşdirilməsidir. Məqalədə aparılan psixoloji tədqiqatın əsas məqsədi təhsil sistemində tətbiq edilən sağlam təhsil texnologiyalarının təhsilalanlarda yaradıcı şəxsiyyətin formalaşmasına psixoloji təsirinin qiymətləndirilməsidir.
**Açar sözlər:** təlim prosesi, psixo-pedaqoji təlim metodları, psixi inkişaf, sağlam təhsil, yaradıcılıq potensialı, emosional münasibətlər.

**DOI: http://dx.doi.org/10.29228/imcra.23**
**Məqaləyə istinad:** Bünyatova A. (2022). "Sağlam Təhsil – Sağlam Millət" layihəsində yaradıcı şəxsiyyətin formalaşması. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – 1 (2022). səh. 34-42.
**Məqalə tarixçəsi:** göndərilib – 08.12.2021; qəbul edilib – 09.01.2022.

## *Giriş / Introduction*

Müasir psixo-pedaqojı nəzəriyyələrin və onların praktik yönümlərinin əsas məqsədi hər bir uşağı sağlam, fəal və yaradıcı şəxsiyyət kimi inkişaf etdirməkdir. Bu problemin həllində belə bir sual ortaya çıxır: təhsil ocaqları təlimi necə təşkil etməlidir ki, orada hər bir uşaq sağlam və yaradıcı şəxsiyyət kimi inkişaf etmiş olsun, təbiətən onun daxilində olan yaradıcılıq qığılcımları sönməsin?! Sovet dövründən qalan avtoritar təlim prosesi uşağın hərtərəfli inkişafına şərait yaratmırdı və bu mənada həmin dövrdə populyar olan klassik nəzəriyyələrlə, stereotipləşdirilmiş ənənəvi tərbiyə metodları ilə bu problemi həll etmək mümkün deyil. Məhz buna görə təhsil müəssisələrində bu gün bir cox problemlər vardır ki, bunlar təlim vəsaitlərinin müasir inkişafetdirici biliklərlə zəngin və yaşa uyğun olmaması; təlim prosesinə yeni psixo-pedaqoji təlim metodlarının tətbiq edilməməsi; sağlamlıq səviyyəsinin nəzərə alınmaması, yaradıcılığın inkişafına diqqət yetirilməməsi; hər uşağın bir şəxsiyyət olduğunun qəbul edilməməsi, onun inkişaf səviyyəsinin, tələbatlarının nəzərə alınmaması və s.-dir. Bütün bu problemlərin həll edilməsi üçün təlim prosesinin inkişafetdirici istiqamətdə qurulması, təlim materiallarının məzmun və strukturunun şagirdyönümlü olması əsasdır.

Bu problemlərin səmərəli şəkildə həll olunması, ölkəmizdə təhsilin günün tələbləri səviyyəsində qurulmasının təmin olunması məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təsdiq edilib.

## *Əsas hissə / Main part*

Dövlət Strategiyasının tələblərinə uyğun olaraq, uşaqların fiziki və psixi inkişafını nəzərə almaqla artıq Bakı və Sumqayıt şəhərlərində, 7 ildir ki, professor V.Bazarnının və yerli mütəxəssislərin hazırladığı metodikalar əsasında “Sağlam Təhsil – Sağlam Millət” layihəsi uğurla tətbiq olunur. Bu proqram çərçivəsində uşaqların fiziki-psixi inkişafı, təlim-tərbiyənin yeni psixo-pedaqoji metodlarla təşkili şəxsiyyətyönümlü pedaqoji texnologiyalar vasitəsi ilə, yeni məzmunda və yüksək səviyyədə həyata keçirilir. Proqramın əsas ideyası fiziki-psixi və mənəvi cəhətdən sağlam, yaradıcı şəxsiyyətin formalaşmasında üçün tətbiq edilən sağlam təhsil texnologiyalarının səmərəlilik səviyyəsinin tibbi-gigiyenik, psixoloji və pedaqoji baxımdan dəyərləndirilməsi və təkmilləşdirilməsidir.

Yaradıcılıq psixologiyası sahəsində aparılan tədqiqatlar göstərir ki, insanın yaradıcılıq potensialının inkişafı daxili və xarici amillərdən asılıdır. Bu, yaradıcılıq potensialının hələ uşaq yaşlarından özünü büruzə verməsini göstərir. Bu

zaman kəsiyi məktəbəqədər və kiçik məktəbli yaş dövrü uşaqlarının senzitiv dövrünə aiddir və müxtəlif yaradıcılıq növlərinin – oyunlar, səhnələşdirmə, təsviri fəaliyyət və s. şəxsiyyətin yaradıcı xassələrinin inkişafı üçün əlverişli vaxt hesab olunur (L.S. Vıqotski, D.B. Elkonin, L.İ. Bojoviç və b.) [Qruzenberq S.O., 1923].

Bu istiqamətdə aparılan araşdırmalardan bəlli olur ki, uşaqların məktəbəqədər və kiçik məktəbli yaş dövründə yaradıcı potensialının inkişaf etdirilməsinə nail olmaq üçün aşağıda qeyd edilən daxili və xarici aspektləri nəzərə almaq zəruridir:

– uşaqların yaradıcı bacarıqlarının inkişafı üçün böyüklər tərəfindən xüsusi tədbirlərin görülməsi, yəni uşağın koqnitiv (təfəkkür, təxəyyül, hafizə, nitq, qavrama, diqqət və s.), psixososial və emosional sahələrinə diqqət yetirilməsi;

– uşaq üçün əlverişli emosional şəraitin yaradılması;

– oyun və dərs prosesində uşağın azadlığına və müstəqilliyinə imkan yaratmaq [Əlizadə Ə., 2006].

**Tədqiqatın məqsədi.** Beləliklə, "Sağlam Təhsil – Sağlam Millət" layihəsi üzrə aparılan psixoloji tədqiqatların əsas məqsədi bu layihədə tətbiq edilən yeni sağlam təhsil texnologiyalarının yaradıcı şəxsiyyətin formalaşmasına təsirinin psixoloji cəhətdən qiymətləndirilməsindən ibarət olmuşdur.

**Tədqiqat obyekti.** Bu məqsədlə təşkil edilən tədqiqata 100 nəfərdən çox ikinci və üçüncü sinif şagirdləri cəlb olunmuşdur. Tədqiqat 2021-ci ilin oktyabr ayında, Bakı şəhərinin sağlam təhsil texnologiyalarının tətbiq edildiyi üç ümumtəhsil (23, 47 və 18 saylı) məktəbində təşkil olunmuşdur.

**Məlumatların toplanması üsulları.** Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı tədqiqat metodlarına üstünlük verilmişdir:

–uşaqların sinifdə emosional münasibətlərini müəyyən etmək üçün A.Etkindin testi;

–uşaqların yaradıcı potensialının üzə çıxarılmasına aid P.Torrensin "Tamamlanmamış fiqurlar"ı.

## Sağlam təhsil siniflərində təhsil alan uşaqlarda yaradıcılıq potensialının inkişaf etdirilməsinin psixoloji qiymətləndirməsinə dair tədqiqatın nəticələri (2021-ci il, oktyabr)

Tədqiqat materiallarının təhlilinə əsasən aşağıdakı nəticələr alınmışdır:
1. Emosional münasibətlər testi ( D.Etkind)




Müqayisəli təhlildə müsbət “mən” obrazı ST siniflərinin şagirdlərində 70% olduğu halda, ənənəvi siniflərdə 68% təşkil etmişdir. “Sinfə münasibət” ST siniflərinin şagirdlərində 80% olduğu halda, ənənəvi siniflərdə 70% təşkil etmişdir. “Müəllim” obrazına münasibət parametri baxımından həm ST siniflərinin, həm də ənənəvi siniflərin şagirdlərinin nəticələri 76% təşkil etmişdir.

2.“Tamamlanmamış fiqurlar” (P.Torrens).



Müqayisəli təhlildə yaradıcılığın yüksək səviyyəsini ST siniflərində oxuyan şagirdlərin 70%-də müstəqil şəkildə yeni süjetlərin qurulması, ətraf mühit haqqında biliklərdən istifadə edərək yeni mövzuların işlənməsi, hər şeydə təşəbbüşkar olmaq, oyun fəaliyyəti üçün mövzunun müstəqil seçilməsi, işin məzmununun müəyyən edilməsi, təklif olunan yarımçıq süjeti tamamlamaq bacarığı, öz istək və düşüncələrini qeyri-adi bir motiv əsasında fikirləşərək həyata keçirmək, başqalarını öz fikir və düşüncələri ilə maraqlandırmaq təşkil etmişdir.

Yaradıcılığın II (orta) səviyyəsinə STS uşaqlarının 30%-də rast gəlinirdi. Bu uşaqlar hərdən sinifdə mövzunu müstəqil seçə bilirdilər – əksər hallarda mövzunu ya böyüklərdən, ya da başqa uşaqlardan alırdılar. Onlar öz fəaliyyətlərində daha çox nağıllarda və müxtəlif filmlərdə olan (cizgi filmləri də daxil olmaqla) süjetlərdən istifadə edirlər.

Bir məsələni də qeyd edək ki, ST qrupundan, bir nəfər də olsun, yaradıcı bacarıqlarına görə üçüncü səviyyəyə aid edilməyib. Eyni zamanda, nəzarət qrupunda belə uşaqların sayı 50%-ə yaxındır. Onlar ünsiyyətə az meyilli olur, mövzu və süjet fikirləşməkdə çətinlik çəkir, təklif olunan variantı tamamlaya bilmir, çox nadir hallarda məhsuldar oyun fəaliyyətinə həvəs göstərirlər. Onlarda nəyi isə icad etmək, yeni, qeyri-adi bir şey fikirləşmək bacarığı aşağı səviyyədədir. Təklif olunan mövzunu həvəssiz qəbul edir, çox vaxt onu tamamlamağa çalışmırlar.

Biz ST siniflərində aparılmış tədqiqatın nəticələrinin təsdiqi kimi, valideynlər arasında sorğu keçirib, onların bu nəticələrə olan münasibətini öyrəndik.



Valideynlərin əksəriyyəti – 90%-i belə hesab edirlər ki, tədqiqat prosesində onların uşaqlarında mühüm dəyişikliklər baş verib. Valideynlərin yalnız 10%-i onların uşaqlarında cüzi dəyişikliklərin olduğu qənaətindədirlər. Əksəriyyəti isə belə hesab edirlər ki, uşaqlarda sərbəstlik, fəallıq, maraq hissi, əminlik, ünsiyyətdə olmaq və ünsiyyətə girmək bacarıqları və s. inkişaf edib.

Apardığımız müqayisəli təhlilin nəticələri (70% –50%) göstərdi ki, ST metodu hərtərəfli inkişaf etmiş, məsuliyyətli və savadlı yaradıcı şəxsiyyətin təşəkkül tapması üçün əsaslı baza yaradır. STS-də dərs prosesinə cəlb olunan şagirdlər böyük daxili maraq, sərbəstlik, işdə özünütəkmilləşdirmə və ictimai uyğunlaşma bacarıqları əldə edirlər.

Beləliklə, ST siniflərində yaradılan sağlam yaradıcı mühitin əsas şərtləri aşağıdakılardır:

**Təbii inkişaf və qavrama prosesi.** Bu prosesdə uşaqlar mətni əzbərləməyə məcbur edilmirlər. Məşğələ zamanı uşaq oxuyur, oynayır, dinləyir, müşahidə və müqayisə edir, yadında saxlayır, öyrənir, təxəyyülündə “səyahət edir”, kiminsə halına yanır və bütün bunların nəticəsində inkişaf edir.

STS-də təlimin başlıca şərti “uşağın oyunda və hərəkətdə inkişaf etməsi” ideyasıdır. İxtiyari diqqətə və yaddaşa nail olmaq üçün uşağa əlverişli mühit və onun yaşına uyğun fəaliyyət lazımdır. Buna görə də, hərəki sərbəstlik şəraitində təlim texnologiyalarına keçidin ilk addımlarında dərs prosesində bir müddət oturaq, bir müddət isə ayaq üstə təlim fəaliyyətini təmin etmək zəruridir. Şagirdlərin hər 15 dəqiqədən bir oturaq və ayaq üstə dayanma vəziyyətlərinin növbələşməsini müəllim tənzimləyir. Sinifdə qeyd edilən 15 dəqiqəni izləmək məqsədi ilə müəllimə yardım etmək üçün xəbərdaredici qurğu yerləşdirilmişdir. Bu qurğu təlim prosesində yerdəyişməni vaxtında aparmaq baxımından müəllimin ən yaxın yardımçısıdır. “Bu dərs texnologiyası məktəblinin fikrini cəmləşdirməyə kömək edir, mənfi hissləri aradan götürür, emosional vəziyyətini yaxşılaşdırır və təbii yorğunluğu azaldır” [Bazarnıy V.F., 2019].

**Hər bir uşaq özünəməxsus şəkildə inkişaf edir.** Bizim ST siniflərində işləyən müəllimlərimiz heç vaxt unutmurlar ki, uşaq öz-özlüyündə unikal xüsusiyyətlərə malikdir və yalnız özünəməxsus bir tərzdə inkişaf edir. Bu baxımdan, biz məşğələləri elə təşkil edirik ki, məşğələ müxtəlif maraq, bilik və bacarıq səviyyəsi olan uşaqlarda maraq oyatsın və səmərəli olsun.

**Çoxsaylı yaradıcı, musiqili və hərəkətli oyunlar.** ST siniflərində dərslər, tədbirlər həmişə yaradıcı mühitdə aparılır və qeyri-adi oyun–tapşırıqları ilə fərqlənir.

**Çoxsaylı fantaziya – eyniliklərdən qaçma.** STS müəllimləri təlim prosesində illərlə tətbiq olunan darıxdırıcı metodlardan istifadə etmirlər. Dərslərin əsasını bizim tərtib etdiyimiz yeni üsullar təşkil edir. Bizim hər məşğələmiz öz-özlüyün-

də unikal və təkrarolunmazdır, müntəzəm şəkildə nə isə fikirləşib, məşğələnin gedişini və məzmununu zənginləşdiririk. Çox hallarda bu zənginləşdirmə uşaqlar tərəfindən həyata keçirildiyi üçün biz onlarla birlikdə daim nə isə bir yenilik yaradırıq.

**Sərbəstlik, təbiilik və aşkarlıq.** Bu prosesdə ST siniflərində oxuyan uşaqlara heç bir təzyiq göstərilmir, sərbəstlik və məşğələnin təbii gedişi əsas götürülür. Müəllim həmişə səmimi və açıqdır, çünki uşaqlar qeyri-səmimi, soyuq münasibəti hiss edirlər. Uşaqlarla yanaşı müəllimlər də onlar kimi çevik hərəkət edir, oxuyur, sürünür, rəqs edir, şəkil çəkirlər və bütün bu hərəkətləri onlar kimi sərbəst və təbii şəkildə həyata keçirirlər [Bunyatova F.D., 2008.]

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsində şagirdlərin psixi-fiziki və mənəvi sağlamlıq səviyyəsi böyük əhəmiyyət kəsb edir. "Sağlam Təhsil – Sağlam Millət" layihəsinin əsas məqsədi təhsilalanların tədris nailiyyətlərini yüksəltməklə yanaşı, təlim şəraitindən irəli gələn hərəkət məhdudiyyətini və digər amilləri aradan qaldırmaq, onların sağlamlığını qorumaqdır" [Məmmədbəyova T., 2017].

## *Nəticə / Conclusion*

Apardığımız tədqiqatın nəticələri sübut edir ki, "Sağlam Təhsil–Sağlam Millət" layihəsində tətbiq edilən sağlam təhsil texnologiyaları ST siniflərində təhsil alan uşaqlarda yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün sosial-psixoloji şəraitin yaradılması və onların təşəbbüslərinin qiymətləndirilməsi emosional özünüifadə imkanlarını artırır, yaradıcılıq potensialının inkişafı üçün intellektual qabiliyyətlərin təzahürünə zəmin formalaşdırır. Məqalədə şagirdlərin sinifdə emosional münasibətlərini müəyyən etmək üçün A. Etkindin testindən, uşaqların yaradıcı potensialının üzə çıxarılmasına aid P.Torrensin "tamamlanmamış fiqurlar"ından söhbət gedir. ST siniflərində oxuyan şagirdlərin 70%-də müstəqil şəkildə yeni süjetlərin yaradılması, ətraf mühit haqqında biliklərdən istifadə edərək yeni mövzuların mənimsənilməsi, yaradıcılığın yüksək səviyyəsi ənənəvi sinif şagirdlərinin nəticələri ilə müqayisəli şəkildə təhlil olunur, nəticə çıxarılır.

**Məqalənin aktuallığı** ondan ibarətdir ki, müasir dövrdə şəxsiyyətyönümlü konsepsiyanın ön plana keçməsi, yaradıcı şəxsiyyətin formalaşdırılması və inkişafı məsələlərini aktuallaşdıraraq elmi-nəzəri və empirik araşdırmaların bu istiqamətdə aparılmasının əsasını təşkil edir.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, ST siniflərində uşaqların yaradıcı təfəkkürünün təbiəti və onların yaradıcı potensialının inkişafı haqqında olan nəzəri təsəvvürləri genişləndirilir, əldə olunmuş nəticələrin təcrübədə tətbiqinə şərait yaradır.

.........................................................................................................

**Məqalənin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, sosial-psixolojı amillərin nəzərə alınması əsasında "Sağlam Təhsil – Sağlam Millət" layihəsi tərəfindən tətbiq edilən sağlam təhsil texnologiyaları ST siniflərində təhsil alan uşaqlar üçün hazırlanmış inkişaf proqramı uşaqların bir şəxsiyyət kimi yaradıcı, idraki və inkişaf səviyyəsini yüksəldir.

***İstifadə olunmuş ədəbiyyat / References***


1. Əlizadə Ə. (2006). İdrak prosesləri və hisslər. Bakı, ADPU-nun mətbəəsi, 345 s.
2. Əlizadə Ə. (1965). Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi. Bakı.
3. Məmmədbəyova T. (2017). "Sağlam Təhsil – Sağlam Millət!" layihəsi. " Məktəbəqədər və ibtidai təhsil" jurnalı, 2017, № 1.
4. Bunyatova F.D. (2008). Konstruktivnoye obucheniye. Baku, 217 s.
5. Bazarnıy V.F. (2019). Dityo chelovecheskoye. Moskva, "Kontseptual", 400 str.
6. Qruzenberq S.O. (1923). Psixologiya tvorchestva. Minsk, 287 str.
7. Vıqotskiy L.S. (1997). Voobrajeniye i tvorchestvo v detskom vozraste. Moskva, "Pedaqoqika", 156 str.